**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ASİF ABDULAĞA oğlu İMANLI**

# XVIII ƏSRİN BİRİNCİ 30 İLİNDƏ AZƏRBAYCANIN SOSİAL-İQTİSADİ VƏ SİYASİ VƏZİYYƏTİ (CON BELL VƏ İOHANN QUSTAV GERBERİN ƏSƏRLƏRİ ƏSASINDA)

**İxtisas: 5503.02 – "Vətən tarixi"**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2017**

Dissertasiya işi  Lənkəran Dövlət Universitetinin "Tarix və fəlsəfə" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:**
tarix üzrə elmlər doktoru, professor,
Əməkdar elm xadimi, dövlət mükafatı laureatı **T.T.MUSTAFAZADƏ**

**Rəsmi opponentlər:**
tarix üzrə elmlər doktoru, professor **F.N.MƏMMƏDOV**
tarix üzrə fəlsəfə doktoru **X.İ.ABBASLI**

**Aparıcı təşkilat:** Azərbaycan Resublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Tarix kafedrası

Müdafiə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 03 mart 2017-ci il tarixli 36 saylı əmri ilə Bakı Dövlət Universitetinin nəzdində yaradılmış tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.16 Dissertasiya Şurasının "___"  "___________" 2017-ci il tarixli iclasında saat ____da keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı, akad. Z. Xəlilov küç., 23.

Dissertasiya işi ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar.

Avtorefarat "___"  "___________" 2017-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi**
**tarix üzrə elmlər doktoru, professor S.Y. SÜLEYMANOVA**

# DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. Uzun illərin gərgin və qanlı mübarizəsi nəticəsində Azərbaycan xalqı öz tarixi müstəqilliyini yenidən bərpa etmişdir. Bu qısa müddət ərzində ölkəmizin tarixinin öyrənilməsinə diqqət görünməmiş dərəcədə artmışdır. Çünki ulularımız keçmişsiz gələcək yoxdur demişlər. Vətənimizin tarixinin öyrənilməsi müstəqilliyimizin möhkəmləndirilməsi üçün də faydalıdır. Tarixin gənclərə öyrədilməsi, onlarda vətənpərvərlik hisslərinin aşılandırmasına yardım etməklə yanaşı, keçmişdə yol verilmiş səhvlərin təkrarlanmaması baxımından da zəruridir. Müstəqilliyin bərpasından keçən az vaxt ərzində ölkəmizin tarixinin müxtəlif dövrlərinin öyrənilməsində mühüm işlər görülsə də hələ bir sira dövrlərin öyrənilməsində müəyyən boşluqlar qalmaqdadır.

Azərbaycan tarixinin az öyrənilmiş dövrlərindən biri də XVIII əsrin birinci otuz ilidir. Bu dövr sosial-iqtisadi böhran, siyasi sarsıntılar və ağır ziddiyyətli illər olduğundan tədqiqatçıların diqqətini bir o qədər cəlb etməmişdir. Halbuki bu illər tariximizin çox mürəkkəb və təlatümlü dövrlərindən olmaqla Azərbaycanın sonrakı tarixi inkişafında dərin izlər buraxmışdır.

XVIII əsrin birinci 30 ili Azərbaycan uğrunda Rusiya-Osmanlı rəqabətinin güclənməsi ilə əlamətdardır. Bu gün də regionumuzda dünyanın iri dövlətləri arasında güclü rəqabət getdiyi bir zamanda onların arasındakı münasibətlərin mahiyyətini dərindən anlamaq, müvafiq nəticələr çıxarıb xarici siyasəti korrektə etmək baxımından yuxarıda adı çəkilən iki qüdrətli imperiyanın Xəzəryanı regionda rəqabət tarixini öyrənmək zərurəti yaranıb. Tədqiqat obyekti olan dövr həm də Azərbaycan tarixi üçün heç də xoş olmayan, lakin regionun gələcək tarixi inkişafına böyük təsir göstərmiş bir təzahürün meydana çıxması ilə əlamətdardır. Məsələnin mahiyyəti bundan ibarətdir ki, Cənubi Qafqaza ilk dəfə real müdaxilə edən Rusiya burada özünə etnik-sosial dayaq yaratmaqdan ötrü xristian amilindən istifadə edərək gürcülərdən və ermənilərdən bir alət kimi istifadə etməyə başlayır. Cənubi Qafqazda gəlmə olan, bu vaxtadək heç bir siyasi qurumu olmayan ermənilər yaranmış vəziyyətdən istifadə edərək burada möhkəmlənmək, mümkün olarsa öz dövlətlərini qurmaq xülyasına düşürlər. Məhz deyilənlər həm də Azərbaycana qarşı erməni təcavüzünün və terrorunun tarixi köklərini öyrənmək baxımından zəruridir.

Tarixin hər hansı bir dövrünü öyrənmək üçün isə ilk tarixi mənbələrin əvəzolunmaz rolu var. Con Bel və İohan Qustav Gerberin əsərləri XVIII

əsrin birinci otuzilliyi Azərbaycan tarixinə aid mənbələr içərisində xüsusi və çox mühüm yer tuturlar. Dövrü tədqiq etmiş tarixçilər bu mənbələrdən istifadə etsələr də bu adətən epizodik səciyyə daşımışdır. Həm də İ.Gerberin beş əsəri olduğu halda Azərbaycan tarixçiləri onun yalnız bir əsərindən – "Həştərxan ilə Kür çayı arasında yerləşən xalqlar və torpaqlar haqqında xəbərlər və 1728-ci ildə onların vəziyyəti haqqında" adlı əsərindən istifadə etməklə kifayətlənmişlər. İ.Gerberin digər əsərləri bu əsərə nisbətən az əhəmiyyətli olsalar da, onlarda bir sıra fərqli məlumatlara, orijinal fikirlərə rast gəlmək mümkündür ki, bu səbəbdən də onların da tədqiqata cəlb edilməsi vacibdir. Məhz buna görə də C.Bel və İ.Gerberin əsərlərini başlıca mənbələr kimi götürüb XVIII əsrin birinci 30 ilində Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyətini tədqiq etmək, həm də göstərilən mənbələri dərindən araşdırmaq əsas vəzifə olmuşdur.

Qeyd edilən amillər XVIII əsrin birinci 30 ilində Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyətinin öyrənilməsinin aktuallığını və dəyərini göstərməklə mövzunun dissertasiya işi kimi tədqiq edilməsinə əsas verir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Elmi-siyasi aktuallığına baxmayaraq, C.Bel və İ.Gerberin əsərləri Azərbaycan tarixşünaslığında ayrıca tədqiqat obyekti olmamış, XVIII əsrin birinci otuzilliyi tarixini öyrənmək üçün başlıca mənbələr elmi dövriyyəyə gətirilməmişdir. V.N.Leviatovun hələ 1948-ci ildə nəşr olunmuş monoqrafiyasında[1] XVIII əsr Azərbaycan tarixi tədqiqat obyekti olduğundan təbii ki, müəllif XVIII əsrin birinci otuzilliyinin də siyasi və sosial-iqtisadi problemlərini tədqiq etmiş, bu zaman C.Bel və İ.Gerberin əsərlərindən də bəhrələnmişdir. Lakin həmin əsər tarixin öyrənilməsində ilk addımlardan biri olduğundan, müəllif bir sıra məsələləri ötəri işıqlandırmış, bir sıra məsələlərin şərhində isə bəzi səhvlərə yol vermişdir. Həmçinin onun əsərində başlıca diqqət əsrin ikinci yarısına – xanlıqlar dövrünə yönəldilmişdir.

Görkəmli rus şərqşünas alimi İ.P.Petruşevskinin XVI-XIX əsrin əvvəllərində Azərbaycanda feodal münasibətlərinin tədqiqinə həsr edilmiş əsəri[2] öyrəndiyimiz dövrün tarixi məsələlərinin araşdırılmasına yardım göstərir və bu əsərdə XVIII əsrin birinci otuzilliyi Azərbaycanın sosial-iqtisadi həyatına dair bir çox məlumatlara rast gəlmək mümkündür. Bilavasitə tədqiqat vəzifəmizə uyğun olmasa da təssüflə qeyd etməliyik ki, əsərin adı yanlışdır. Axı göstərilən dövrdə hansı Ermənistandan söhbət gedə bilərdi? İ.P.Petruşevskinin "Ermənistan" kimi təqdim etdiyi ərazilər əslində Qərbi Azərbaycan əraziləridir. Hələ 1970-ci ildə Ş.S. Hüseynov XVIII əsrin birinci yarısında Azərbaycanda əkinçilik və aqrar

münasibətlərin tədqiqinə həsr olunmuş elmlər namizədi dissertasiyasını müdafiə etmişdir. Ancaq, nədənsə bu dissertasiya yoxa çıxmış və onun yalnız avtoreferatı qalmışdır. Avtoreferatdan məlum olur ki, müəllif əsas diqqətini torpaq sahibliyi və torpaqdan istifadənin növlərinə, kənd təsərrüfatının əsas sahələrinin vəziyyətinin tədqiqinə yönəltmişdir.

Qeyd edək ki, seçdiyimiz mövzuya XIX əsrin birinci yarısının tarixçisi, yeni Azərbaycan tarixi elminin banisi A.A.Bakıxanovun məşhur "Gülüstani-İrəm" əsərində xeyli yer verilmişdir. O dövrdə baş verən hadisələrin mahiyyətini əsasən düzgün açmaqla yanaşı A.A.Bakıxanov mənbələrin azlığı və həmin mənbələrdə olan səhvlər üzündən bəzi məsələlərin işıqlandırılmasında bir sıra yanlışlıqlara yol vermişdir. Məsələn o, Şamaxının Şirvan üsyançıları tərəfindən iki dəfə alınması kimi yanlış mülahizə[3] irəli sürmüş və uzun illər həmin mülahizə tarixşünaslıqda kök salmışdır.

XX əsrin 20-30-cu illərində yazılan Y.S.Zevakinin[4] və M.A.Polievktovun[5] əsərlərində XVIII əsrin birinci otuzilliyi bəzi məsələləri öz əksini tapmışdır. Onların əsərləri göstərilən dövrdə Azərbaycanın Xəzəryanı vilayətlərinin iqtisadi vəziyyətinin mənzərəsini yaratmağa müəyyən dərəcədə yardım edir. Y.Zevakin rus işğal zonasında gəlirləri əks etdirən cədvəllər nəşr etdirmişdir. Y. Zevakin və M.Polievktov düzgün olaraq qeyd edirlər ki, işğal olunmuş vilayətlərin əhalisi Rusiyaya mənfi münasibət bəsləyir və gah Türkiyədən, gah da şah II Təhmasibdən imdad umurdular.

---

[1]Левиатов В.Н.Очерки из истории Азербайджана в XVIII веке. Баку: Изд. АН Азерб. ССР, 1948, 228 с.

[2]Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI-начале XIX вв. Л., 1949, 382 с.

[3]Bakıxanov A.A. Gülüstani-İrəm. Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı. Bakı: 1951. Təkrar nəşr, Bakı: "Xatun plyus", 2010, s.7.

[4]Зевакин Е.С. Прикаспийские провинции в эпоху русской оккупации XVIII века. Известия общества обследования и изучения Азербайджана.1927, №5. сс. 7-10

[5]Полиевктов М.А.Проект хозяйственной эксплуатации оккупированных в XVIII в. Россией прикаспийских областей Кавказа. // Материалы по истории Грузии и Кавказа. Вып.IV, Тбилиси, 1937, сс.247-282.

V.P.Lıstsovun məlum əsərində[1] I Pyotrun Xəzəryanı vilayətlərə yürüşü tədqiqat obyekti olmuşdur. Qeyd etmək lazımdır ki, V.P.Lıstsov sələflərinin ənənəsini davam etdirərək I Pyotrun yürüşünü "İran yürüşü" adlandırır. Halbuki yürüşdə başlıca məqsəd Azərbaycanı ələ keçirmək idi. O yanlış olaraq Azərbaycanın Xəzəryanı vilayətlərini İran əraziləri, bəzilərini isə hətta erməni ərazisi kimi qələmə verir, Azərbaycan türklərini isə bəzən iranlı adlandırır.[2]

1964-cü ildə A.Əbdürrəhmanovun XVIII əsrin birinci yarısında Azərbaycanın Rusiya-İran və Rusiya-Türkiyə münasibətlərinə həsr olunmuş kitabı çapdan çıxmışdır.[3] Müəllif Rusiya-Səfəvi münasibətlərinə daha çox diqqət ayırmış, Osmanlı-Rusiya münasibətlərini isə bir qədər səthi işıqlandırmışdır.

XVIII əsrin birinci otuzilliyi Azərbaycan tarixinin öyrənilməsində F.M.Əliyevin daha çox xidməti olmuşdur. O, 1964-cü ildə nəşr etdirdiyi əsərində[4] XVIII əsrin birinci yarısında Azərbaycanda ticarətin vəziyyətini tədqiq etmişdir. F.M.Əliyev Rusiya arxivlərindən qiymətli materiallar əldə etməklə XVIII əsrin 20-40-cı illərində Azərbaycan xalqının şah rejiminə qarşı mübarizəsinə və osmanlı hərbi müdaxiləsinə müqaviməti barədə çox sanballı bir kitab həsr etmişdir.[5] Müəllif Rusiya arxivlərində saxlanılan bir çox sənədləri ilk dəfə tədqiqata cəlb etməklə yanaşı C.Bel və İ.Gerberin əsərlərindən də xeyli istifadə etmişdir. Əsərdə I Pyotrun yürüşünə Azərbaycan əhalisinin münasibəti, osmanlı ordularının Azərbaycan ərazisində apardığı hərbi əməliyyatlar ətraflı işıqlandırılmışdır. Digər bir əsərində[6] isə F.M.Əliyev A.P.Volınskinin 1716-1718-ci illərdə Azərbaycana səfərini tədqiq etmişdir.

---

[1]Лысцов В.П. Персидский поход Петра I. 1722-1723, Москва, Изд. Московского Университета, 1951, 245 с

[2]Yenə orada, səh. 102.

[3]Абдурахманов А.А. Азербайджан во взаимоотнашениях России, Турции и Ирана в первой половини XVIII века. Баку: 1964, 100 с.

[4]Əliyev F.M. XVIII əsrin birinci yarısında Azərbaycnda ticarət, Bakı: Azərbaycan SSRİ EA nəşriyyatı, 1964, 123 c.

[5]Алиев Ф.М. Алиев Ф.М. Антииранские выступления и борьба против турецкой оккупации в Азербайджане в первой половине XVIII века. Баку: Элм, 1975. 232 с.

[6]Алиев Ф. М. Миссия посланника Русского государства А.П.Волынского в Азербайджане в 1716-1718 гг. Баку: Элм, 1979.с.122

G.N.Məmmədovanın kitabında[1] Azərbaycandakı rus konsullarının məlumatları, raportları, gündəlikləri, qeydləri, məktubları əsasında Azərbaycanın XVIII əsrin 20-30-cı illər tarixinin müxtəlif məsələləri tədqiq olunur. T.F.Əliyevin dissertasiyasında[2] Şirvanın XVII-XVIII əsrlərdə tarixi coğrafiyası rusdilli mənbələr əsasında tədqiq olunmuş və bu zaman müəllif İ.Q.Gerberin "Xəbərləri"ndən məlumatlardan xeyli istifadə etmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra T.T.Mustafazadənin əsərlərində XVIII əsrin birinci otuzilliyində Azərbaycan tarixinin bir sıra məsələləri tədqiq olunmuşdur. O cümlədən, onun bir əsərində[3] arxiv sənədləri və digər ilk mənbələr əsasında əsrin birinci qərinəsində Azərbaycanın sosial-iqtisadi vəziyyəti, ölkədaxili siyasi vəziyyət, ölkənin beynəlxalq vəziyyəti və qonşu dövlətləri arasında regionda gedən rəqabət geniş tədqiq olunmuşdur. T.T.Mustafazadənin xronoloji çərçivəsi daha geniş olan digər əsərində[4] Azərbaycan ərazisində Rusiya və Türkiyənin yeritdiyi siyasətə geniş yer ayrılmışdır. G.Şirəliyevanın fəlsəfə doktorluğu dissertasiyasıda[5] XVIII əsrin birinci yarısında Azərbaycanda əkinçilik və aqrar münasibətlər, A.A.Abbasovanın fəlsəfə doktorluğu dissertasiyasında[6] isə Rusiyanın Cənubi Qafqaza qarşı işğalçılıq siyasətində dini-etnik amillər araşdırılmışdır. E.T.Qarayevin kitabında[7] rus səyyahı F.İ.Soymonovun səyahətnaməsi əsasında XVIII əsrin birinci rübündə Azərbaycanın sosial

[1]Мамедова Г.Н. Русские консулы об Азербайджане (20-60-е годы XVIII века), Баку: Элм, 1989, 128 с.

[2]АлиевТ.Ф. Историческая география Ширвана XVII-XVIII вв. (по русскоязычным источникам). АКД, Баку, 1992, 22 с.

[3]Мустафазаде Т.Т.Азербайджан и русско-турецкие отношения впервой трети XVIII века. Баку: Елм, 1993, 240 с.

[4]Mustafazadə T.T. XVIII yüzillik - XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı: Elm, 2002, 372 s.

[5]Ширалиева Г.Р.Земледелие и аграрные отношения в Азербайджане (в первой половине XVIII века). Дис, ф. по истории Баку, 2012.138 с.

[6]Abbasova A.A. XVIII əsrdə Rusiyanın Cənubi Qafqaza qarşı işğalçılıq siyasətində dini-etnik amillər. T.ü.f.d. dissertasiyası, Bakı, 2009, 164 s.

[7]Qarayev E.T. F.İ.Soymonovun "Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri" adlı səyahətnaməsi Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 2006. 41 s.

iqtisadi vəziyyəti tədqiq olunmuşdur. N.R.Gözəlovanın dissertasiyası[1] və kitabında isə XVIII əsr Azərbaycan tarixi məsələlərinin ingilis dilli tarixşünaslığı tədqiq olunmuşdur.

Son illərdə Azərbaycanın XVIII əsrin birinci yarısı tarixinə dair bir sıra dissertasiyalar həsr olunmuşdur. O.T.Əlizadənin dissertasiyasında[2] osmanlı-səfəvi münasibətləri tədqiq olunmuş, XVIII əsrin əvvəllərində Osmanlı və Səfəvi imperiyalarının daxili və beynəlxalq siyasi vəziyyəti ümumi şəkildə təsvir olunmuşdur. E.İ.Hüseynovun dissertasiyası[3] Azərbaycanın Nadir şah Əfşarın hakimiyyəti dövründəki vəziyyətinə həsr olunsa da, Səfəvi dövlətinin son illərindəki vəziyyəti haqqında da məlumat verilmişdir.

X.Abbaslının 2009-cu ildə müdafiə etdiyi tarix üzrə fəlsəfə doktorluğu dissertasiyasında[4] Gəncə-Qarabağ bəylərbəyliyinin XVIII əsrin birinci yarısındakı vəziyyəti tədqiq olunmuşdur.

**Tədqiqatın mənbə bazası.** Dissertasiyanın mənbə bazasının əsas hissəsini ilk rus mənbələri – səyyahların səyahətnamələri, müasirlərin məlumatları və rus arxiv sənədləri təşkil edir. Bu onunla izah olunur ki, orta əsrlərdə şərq müəllifləri öz əsərlərində hökmdarları mədh etməklə məşğul olur və əsasən siyasi hadisələri təsvir edirlər. Bu əsərlərdə iqtisadi məlumatlara çox az rast gəlinir. Orta əsr Azərbaycan şəhərlərində mövcud olan arxivlər ya tez-tez baş verən feodal-ara müharibələrində məhv olmuş, ya da XIX əsrin əvvəllərindəki Rusiya-İran müharibələri zamanı Rusiyaya aparılmışdır. XVII əsrdən başlayaraq Rusiyada manufaktura sənayesinin inkişafı ilə əlaqədar xammal əldə etmək mümkün olan yerlərə maraq yaranır. Zəngin təbii sərvətlərə malik Azərbaycan rus iş adamlarının və rəsmilərinin diqqətini cəlb edirdi. XVIII əsrin əvvəllərində Azərbaycanın rus mütəxəssisləri tərəfindən öyrənilməsi I Pyotrun işğalçı siyasəti ilə əlaqədar idi. Öz dövlətini qabaqcıl dövlətlər sırasına çıxartmağa can atan I Pyotur bunun üçün xammalla zəngin olan əraziləri ələ keçirməyə çalışırdı. Bu cəhətdən şərq ölkələri Qərbi Avropa ölkələrindən müsbət mənada

---

[1]Гезалова Н.Р. Вопросы истории Азербайджана XVIII века в англоязычной историографии. АДДФ, Baky, 2006, 28 c.

[2]Əlizadə O.T. XVIII əsrin birinci yarısında Osmanlı-Səfəvi münasibətləri. T.ü.f.d. dissertasiyası, Bakı, 2004, 180 s.

[3]Hüseynov E.İ. Azərbaycan Nadir şah Əfşarın hakimiyyət dövründə. FDDA, Bakı, 2009, 167 s.

[4]Abbaslı X.İ.Gəncə-Qarabağ bəylərbəyliyi XVIII əsrin birinci yarısında T.ü.f.d. dissertasiysı, Bakı, 2014, 144 s.

fərqlənirdi. I Pyotr Xəzər dənizini Rusiyanın daxili gölünə çevirməyə çalışır və planını həyata keçirmək üçün Xəzər sahillərini öyrənməyə başlayır. Bu məqsədlə I Pyotr Xəzər sahillərinə müxtəlif ekspedisiyalar göndərir. 1722-1735-ci illərdə Azərbaycanın Xəzəryanı vilayətləri Rusiya tərəfindən işğal olunduğu zaman rus iş adamlarının və rəsmilərinin Azərbaycana marağı daha da artmışdır. I Pyotrun yürüşünün iştirakçılarından biri olan İ.Gerberə Xəzər dənizinin sahillərindəki ərazilər və əhalisi haqqında məlumat toplamaq tapşırılır. İ.Gerber topoqrafik şəkillər əsasında Abşeronda ilk xəritəsini hazırlayır.[1]

Öyrəndiyimiz mövzu üzrə Rusiyanın Qədim Aktlar Dövlət Arxivində, Rusiya Dövlət Hərbi-Tarix Arxivində, Rusiya Dövlət Kitabxanasında və Rusiya Dövlət Ümumi Tarix Kitabxanasında materiallar vardır. Rusiyanın Qədim Aktlar Dövlət Arxivində, ələlxüsus onun 77 saylı "Rusiyanın İranla münasibətləri" fondunda rus səfirləri, səyyahları tərəfindən tərtib edilmiş materiallar qorunur. Həmçinin Rusiyanın Qədim Aktlar Dövlət Arxivinin üstün cəhəti odur ki, mikrofilimlər daha aydın görünür, arxiv sənədləri və əlyazmalar kompüterlərin yaddaşlarına yerləşdirilib ki, bundan istifadə etmək daha yaxşıdır.

Dissertasiya yazılarkən təbiidir ki, ən çox C.Bel və İ.Gerberin əsərlərindən istifadə olunmuşdur. Bununla yanaşı digər mənbələrdəki məlumatlar da tədqiqata cəlb olunaraq müqayisəli təhlil aparılmışdır. Digər mənbələr arasında ilk növbədə Rusiya arxivlərində saxlanan sənədləri qeyd etmək lazımdır. 1722-1735-ci illərdə Azərbaycanın Xəzəryanı vilayətləri Rusiya tərəfindən işğal olunduğundan Azərbaycana diplomat, alim və s. mütəxəssislər göndərilirdi. Onlar qeydlər edir, səfər gündəlikləri yazırdılar. İşğal olunmuş vilayətlərdəki rus hərbi-hakimiyyət nümayəndələrinin raportları da mühüm mənbələrdir. Bu sənədlər içərisində I Pyotrun 1716-1718-ci illərdə Azərbaycana və İrana göndərdiyi A.P.Volınskinin səfər jurnalını xüsusi qeyd etmək lazımdır. A.Volınski rəsmən elçi missiyasını yerinə yetirsə də I Pyotrun gizli təlimatına uyğun olaraq uzun müddət Azərbaycanda qalaraq gördüyü və diqqətini çəkdiyi hər şeyi gündəlik jurnalına qeyd etdirmişdir. Buna görə də həmin jurnal da ölkənin o zamankı siyasi və iqtisadi vəziyyəti haqqında çox qiymətli məlumatlar vardır. Çox geniş həcmə malik (1200 səhifədən çox) jurnalın yalnız 20-30 səhifəlik cüzi bir hissəsi 1928-ci ildə Y.S.Zevakin tərəfindən çap

[1]Xəlilov E.Ş. XVIII əsrin birinci yarısı Azərbaycan tarixinin tarixşünaslığı, FDDA, Bakı, 2011, 158 s.

olunmuşdur. Jurnalın orijinalı Rusiya Dövlət Qədim Aktlar Arxivində qorunur.

A.Volınski şah sarayından geri dönərkən özü Niyazabadda gəmiyə minib üzdüyü halda şahın çar üçün göndərdiyi fil və aslanları gəmi ilə aparmaq mümkün olmadığından səfirliyin üzvü dvoryan A.Lopuxinlə quru yolu ilə göndərmişdi. A.Lopuxin də A.Volınski kimi keçdiyi yerlərin təsvirini verdiyindən onun da yol qeydləri o dövrün Azərbaycan tarixini öyrənmək üçün mühüm əhəmiyyətə malikdir. A.Lopuxinin jurnalı bütünlüklə çap olunmuşdur.[1] Rus zabit-tədqiqatçısı F.İ.Soymonovun xatirələrində[2] də tədqiqatımız üçün faydalı məlumatlara rast gəlmək mümkündür. Bundan əlavə polyak yezuit missioneri T.Q.Kruşinskinin[3], fransız missionerləri A.Filip[4], Maz, Florio, Başu və digərlərinin[5] səyahətnamələrində Azərbaycan tarixinin tədqiq etdiyimiz dövrü haqqında qiymətli məlumatlar tapmaq mümkündür. 1727-1728-ci illərdə osmanlı məmurlarının tərtib etdikləri "Gəncə-Qarabağ əyaləti müfəssəl dəftəri", Naxçıvan sancağının müfəssəl dəftəri, "Qazax sancağının müfəssəl dəftəri", XVIII əsrin birinci otuzilliyində Azərbaycan iqtisadiyyatının vəziyyətini, aqrar münasibətləri və vergi sistemini öyrənmək üçün əvəzolunmaz mənbələrdir. Y.H.Cəlalyanın[5], A.Yerevanlının[6] və dövrün digər tarixi salnamələrində qiymətli məlumatlar vardır. İlk mənbələrlə yanaşı,

---

[1]Лопухин А. Журнал путешествий через Дагестан 1718 г. //История, география и этнография Дагестана. сс. 6-9

[2]Соймонов Ф.И. Описание Каспийского моря и чиненных на оном российских завоеваний // Ежемесячные сочинения и известия о ученых делах (СПБ.), 1763, январь, 350 с.

[3]Kruşinski T.Q. Xristian səyyahının tarixi (farscadan tərcümə edən Ş.Fərzəliyev) Bakı: Azərnəşr, 1993, 105 s.

[4]Авриил Филипп. Путешествие в страны Европы и Азии. Путешествие Татария (перевод с французского на русский язык Абезгуза) // AMEA TİEA, f.1, s.1, iş 77.

[5]Выдержки из «Letters curienses et e difianters etc (de le Maze, Bachond, Fleurian ets". (Выдержки из записей французских миссионеров Маза, Башуда, Флориа и др. перевод с французского на русского Абезгуза) // AMEA TİEA, f.1, siyahı, 1, iş 471.

[6]Джалалян Е.Х. Краткая история страны Албанской (1702-1722 гг.). Пер. с древнеарм. языка Т.И.Тер-Григоряна (Предисловие и подготовка к изданию акад. З.М.Буниятова). Баку,1989. 48с.

[6]Ереванци А. История войн 1721-1736 гг. Ереван: Изд. АРМФАНА, 1939, 944 с.

dissertasiyanı yazarkən öyrəndiyimiz dövrə həsr olunmuş, yaxud da bütünlüklə XVIII əsr tarixinə həsr olunmuş elmi-tədqiqatlardan da istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** XVIII əsrin ilk otuzilliyi Azərbaycan tarixi tədqiqatın obyekti olmuşdur. Əsrin əvvəlində Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti, ölkədə baş verən kütləvi çıxışlar, qonşu iri dövlətlərin Azərbaycana müdaxiləsi, Rusiya və Osmanlı işğal zonalarında əhalinin vəziyyəti, rusların və osmanlıların tətbiq etdikləri idarəçilik və vergi sistemi və bir sıra başqa məsələlər tədqiqatın predmetini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi C.Bel və İ.Gerberin əsərlərindən istifadə etməklə XVIII əsrin birinci otuzilliyində Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyətini dərindən və kompleks araşdırmaqdır. Qarşıya qoyulan məqsədə çatmaq üçün ilk növbədə C.Bel və İ.Gerberin indiyədək tədqiqata cəlb olunan və cəlb olunmayan əsərləri toplanıb təhlil olunmuşdur.

-Bu əsərlərdə olan fakt və məlumatları digər ilk mənbələrin məlumatları ilə tutuşdurub mötəbərliyi müəyyənləşdirmiş və qarşılıqlı müqayisə nəticəsində hansı fakt və məlumatların doğru, hansının yanlış olması dəqiqləşdirilmişdir.

- C.Bel və İ.Gerberin əsərlərinin Azərbaycan tarixi üçün əhəmiyyəti aydınlaşdırmış və mənbələrdən toplanan məlumatları ümumiləşdirmək yolu ilə öyrənilən dövrdə Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyətinin mənzərəsi bərpa edilmiş, qonşu iri dövlətlərin siyasətində Azərbaycanın tutduğu yer müəyyənləşdirmişdir.

- XVIII əsrin 20-ci illərində Azərbaycanın böyük hissəsini zəbt edən Rusiya və Osmanlı imperiyalarının tutduqları ərazilərdə yeritdikləri siyasətinin mahiyyəti açılmışdır.

- C.Bel və İ.Gerberin əsərlərini başlıca mənbələr kimi götürüb XVIII əsrin birinci 30 ilində Azərbaycanın sosial iqtisadi və siyasi vəziyyətini tədqiq etmək, həm də göstərilən mənbələri dərindən araşdırmaq əsas vəzifə olmuşdur.

**Tədqiqatın metodoloji əsası**. Dissertasiyanın metodoloji əsasını tarixi inkişafın ümumi qanunauyğunluqlarına əsaslanan nəzəri baxışlar sistemi təşkil edir. Nəzəri baxışlar tarixi-tədqiqat metodlarının seçilməsində özünü göstərmişdir. Ümumelmi metodlar yəni təhlil, sintez, ümumiləşdirmə ilə yanaşı, tarixi müqayisə, tarixçilik, tənqidi yanaşma kimi metodlardan geniş istifadə olunmuşdur. Problem araşdırılarkən konkret tarixi yanaşma tətbiq

olunmuş, materialların müqayisəsi, faktiki və stastik məlumatların təhlili və ümumiləşdirilməsi zamanı elmi metodlar tətbiq olunmuşdur. Tədqiqat tarix elminin müasir nailiyyətlərinə əsaslanır, tarixşünaslıqda məlum olan mülahizələr və fərziyyələr yenidən tənqidi təfəkkür süzgəcindən keçirilmişdir. Dissertasiyada XVIII əsrin ilk otuzilliyində Azərbaycanda baş verən sosial-iqtisadi və siyasi hadisələr ümumi tarixi kontekstdə araşdırılmış, ümumməntiqi metodlarla yanaşı tarixi təsvir və sistemli təhlildən istifadə olunmuşdur.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyanın elmi yeniliyi ilk növbədə C.Bel və İ.Gerberin əsərlərinin ilk dəfə ayrıca tədqiqat obyekti olmasıdır;

- Həmçinin ilk dəfə olaraq C.Bel və İ.Gerberin əsərləri əsas götürülməklə Azərbaycanın XVIII əsrin birinci otuzilliyi tarixi tədqiq olunmuşdur;
- İ.Gerberin Azərbaycan tarixşünaslığında məlum olmayan bir neçə əsəri üzə çıxarılaraq tədqiqata cəlb olunmuşdur;
- Həm İ.Gerberin, həm də C.Belin əsərləri digər mənbələrlə müqayisəli təhlil olunmuş, yanlışlıqlar da göstərilmiş, eyni zamanda bu vaxta kimi tədqiqatçıların diqqətini cəlb etməmiş bir sıra yeni faktlar və məlumatlar elmi dövriyyəyə daxil edilmişdir.
- Eyni zamanda tədqiq olunan mənbələrdə buraxılmış səhvlər və yanlışlıqlar üzə çıxarılmışdır.
- Tarixşünaslıqda, xüsusən sovet dövrü tarixşünaslığında hakim olmuş bəzi yanlış müddəalar təkzib olunmuş, təhrif olunmuş faktlar və tarixlər müəyyənləşdirilərək həqiqi faktlar və hadisələr göstərilmişdir.

**Tədqiqatın nəzəri və elmi əhəmiyyəti**. Tədqiqatdan doğan nəticələr, dissertasiyada verilmiş mülahizələrdən və nəticələrdən bütövlükdə Azərbaycanın son orta əsrləri tarixinə həsr olunmuş əsərlər yazılarkən istifadə oluna bilər. Bununla yanaşı eyni zamanda Azərbaycan tarixi üzrə ümumiləşdirilmiş əsərlər yazılarkən, ali məktəblərdə tarix ixtisası üzrə xüsusi kurslar keçirilərkən tədqiqatdan bəhrələnmək olar.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Lənkəran Dövlət universitetinin tarix-fəlsəfə kafedrasında yerinə yetirilmiş, universitetin humanitar və pedaqoji fənlər fakültəsinin elmi seminarında müzakirə olunaraq müdafiəyə məsləhət görülmüşdür. Dissertasiya işinin ümumi məzmunu və başlıca elmi nəticələri barədə 5 məqalə və 3 tezis Azərbaycanda, 2 məqalə və 1 konfrans materialları xaricdə dərc olunmuşdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, on bir yarım fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı, elmi əhəmiyyəti əsaslandırılmış, mövzunun öyrənilmə dərəcəsi müəyyənləşdirilərək, mənbə bazası xarakteriza olunmuş, tədqiqatın obyekti və predmeti, metodoloji əsası göstərilmiş, məqsəd və vəzifələri müəyyənləşdirilmiş, dissertasiyanın elmi yeniliyi, nəzəri və elmi əhəmiyyəti diqqətə çatdırılmışdır.

Dissertasiyanın **"XVIII əsrin birinci 30 ilində Azərbaycan tarixi üzrə mənbələr həmçinin Con Bel və İohann Qustav Gerberin səyahətnamələri"** adlanan birinci fəsli üç yarımfəsildən ibarətdir. Birinci yarım fəsil **"XVIII əsrin birinci 30 ilində Azərbaycan tarixi üzrə mənbələrin ümumi səciyyəsi"** adlanır. Göstərilir ki, həmin dövrdə Azərbaycana yaxud bütövlükdə Səfəvi dövlətinə səyahət etmiş şəxslərin xatirələri və ya səyahətnamələri bu dövrü öyrənmək üçün xüsusi əhəmiyyətə malkdir. Səyahətnamələrin qiymətli cəhəti bundadır ki, müəlliflərin ilk dəfə gəldikləri ölkədə gördüklərinin coxu onlar üçün yeni olduğundan hər şeylə maraqlanırdılar. Yerli müəlliflər üçün adi görünən və buna görədə onların diqqət yetirmədikləri şeylərə səyyahlar diqqət yetirirdilər. Səyyahların bir çoxu həm də mənsub olduğu ölkələrin maraqları naminə kəşfiyyat səciyyəli məlumatlar toplayırdılar.

Dövrə aid Korneli de Brüinin, C.Hanveyin, Tadeuş Kruşinskinin, A.P.Volınskinin və F.İ.Soymonovun səyahətnamələrinin adını xüsusi qeyd etmək olar. Dissertasiyada həmin səyahətnamələr haqqında qısa məlumat və onların xarakteristikası verilmişdir.

Tədqiqatda C.Hanvey və onun səyahətnaməsi haqqında məlumat verilərək qeyd olunur ki, o tanınmış tacir, səyyah və ictimai xadim olmuşdur. 1743-1744-cü illərdə şirkətin işləri ilə əlaqədar İranda olmuş C.Hanvey özünün iki cildlik[1] "An historical account of the British Trade over the Caspian Sea, with a journal of travels" (Xəzər dənizi hövzəsində ingilis ticarətinin tarixi nəticələri və səyahətlər jurnalı) əsərini çap etdirmişdir. "İran inqilabı" adlanan birinci cilddə Şah Sultan Hüseynin

[1]Hanvey Conas. An historical account of the Caspian Sea: with authors journal of travels from England through Russia into Persia and back through Russia, Germany and Holland. London , vol.1, 1782, 460 p.

hakimiyyəti, əfqanların İsfahanı və bütövlükdə Səfəvi dövlətinin şərq hissəsini zəbt etməsi, Mir Mahmud şah və onun xələfi Əşrəfinin hakimiyyəti təsvir olunmuşdur.

XVIII əsrin birinci otuz ilində Səfəvi dövlətində olmuş avropalılardan biri də polyak yezuit Tadeuş Kruşinskidir. O, uzun müddət 1707-ci ildən 1725-ci ilədək İranda olmuş Səfəvi dövlətindəki yezuit missiyasının rəhbəri kimi, bir müddət isə şah sarayında tərcüməçi kimi fəaliyyət göstərmişdir.[1] Sonralar o, "Tarixi-səyyahi-Məsihi" (Xristian səyyahın tarixi) və "İran inqilabının tarixi" adlı əsərlərini yazmışdır. Andrea de Klostrun "İran şahı Təhmasibqulu xanın tarixi" əsərində[2] Nadirin hakimiyyətə gəlməsi ərəfəsində Səfəvi dövləti ərazisində mövcud vəziyyət öz əksini tapmışdır.

XVIII əsrin ilk iki onilliyi Azərbaycan tarixi üzrə çox mühüm mənbə I Pyotr tərəfindən 1716-cı ildə Səfəvi sarayına elçi kimi göndərilmiş A.P.Volınskinin səyahətnaməsidir. Rəsmən o, şah hökuməti ilə ticarət müqaviləsi bağlamalı olsa da gizli çar təlimatına görə Səfəvi dövlətinin daxili siyasi və iqtisadi vəziyyəti, hərbi potensialı haqqında ətraflı məlumat toplamalı idi. Məhz buna görə də A.Volınski özü və katibləri gündəlik jurnal tərtib edərək gördükləri, eşitdikləri az-çox əhəmiyyətli hadisələri və başqa şeyləri jurnala köçürürdülər.[3]

A.P.Volınskinin səfərinə həsr olunmuş jurnalda XVIII əsrin ilk iki onlliyi Azərbaycan və İran tarixi üzrə mötəbər məlumatlar çox olduğundan o bu ölkələrin tarixini öyrənmək üçün dəyərli mənbədir. Jurnalda həm siyasi-iqtisadi, həm də topoqrafik-etnoqrafik səciyyəli materiallara rast gəlmək olur.

Azərbaycan tarixinin tədqiq olunan dövrü üçün mühüm əhəmiyyəti olan mənbələrdən biri də rus hərbi dənizçisi olmuş F.İ.Soymonovun "Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının imperator Böyük

---

[1]The Cambridge history of İran.Vol. 6- The Timurid and Safavid periods // Cambridge University Press. Edited by P.Jackson, late by L.Lokhart. 1986. 408p.
[2][Клостр А.] История о персидском шахе Тахмас Кулы хане. На российский язык переведенная ассесором Степаном Решетовым. СПб.,1762, 399 с.
[1]Журнал [собственноручно отысканный в бумагах после графа Остермана] подполковника Артема Волынского, бытности его у персидского шаха Хусейна в посланниках. Тут же: а) журнал на персидскую карту, с кратким описанием провинций лист; б) описание городов персидского государства и о доходах; г) перечень журнала его. РГАДА, ф.77 (СРП), опись 1, 1715-1718 гг. д. 2

Pyotrun tarixinin bir hissəsi kimi təsviri” əsəridir. 1719-cu və 1720-ci illərdə Xəzər dənizinin qərb sahillərinə kapitan fon Verdenin başçılığı ilə təşkil olunan ekspedisiyalarda Verdenin köməkşçisi kimi iştirak etmiş, sonra isə I Pyotrun yürüşünə qoşulmuş F.İ.Soymonov şəxsən şahidi olduğu və ya eşitdiyi hadisələri qələmə almışdır. Buna görə də onun məlumatları çox qiymətlidir. E.F.Qarayev həmin səyahətnaməyə ayrıca tədqiqat əsəri həsr edərək onu bir mənbə kimi ətraflı öyrənmiş və kitab[1] nəşr etdirmişdir.

**“Con Bel və onun Səyahətnaməsi”** adlı ikinci yarımfəsildə qeyd olunur ki, A.P.Volınskinin səfirliyinin tərkibində həkim olmuş milliyyətcə şotland, Rusiyada xidmət edən Con Bel səfər zamanı müstəqil gündəlik tərtib etmişdir.[2] O, Azərbaycanda və İranda olduğu zaman qələmə aldığı məlumatları digər ölkələrə etdiyi səfərlər zamanı yazdığı yol qeydləri ilə birlikdə iki cilddən ibarət səyahətnaməsində fransız dilində çap etdirmişdir. Həmin səyahətnamənin birinci hissəsi Mixaylo Popov tərəfindən rus dilinə tərcümə edilmiş və 1776-cı ildə nəşr olunmuşdur. A.P.Volınskinin səfəratnaməsində əsas diqqət hərbi, siyasi və qismən də sosial-iqtisadi məsələlərə yönəlmişdisə, C.Belin yol qeydlərində Azərbaycanın etnoqrafiyası, flora və faunası haqqında məlumatlar öz əksini tapmışdır. Həm də C.Belin məlumatları daha qərəzsiz və obyektivdir. Əgər A.P.Volinski və onun rus köməkçiləri yol boyu yaşayan yerli əhaliyə düşmən münasibət bəsləyirdilərsə, onlardan fərqli olaraq C.Bel yerli sakinlərə daha humanistcəsinə, anlayışla yanaşırdı. Məsələn, soyuq dekabr günlərinin birində bir kəndin sakinləri elçilik üzvlərini kənddə gecələməyə qoymamışdılar. Müəllif sakinlərin bu cür davranışına haqq qazandıraraq yazırdı ki, əgər sakinlər evlərini elçilik üzvlərinə görə tərk etsəydilər onlar özləri açıq səma altında gecələməli olardılar və bu zaman qocalar və uşaqlar soyuqdan donardılar. Səyahətnamədə Dərbənd, Şamaxı, Bakı, Təbriz, Niyazabad, Əhər və başqa Azərbaycan şəhərləri və yaşayış məntəqələri haqqında dəyərli məlumatlar vermişdir. C.Belin əsərində yanlışlıqlar da var, və buna görə də tədqiqatçı əsərdən istifadə edərkən ehtiyatlı olmalı və tənqidi yanaşmalıdır. Məsələn o yazır ki, guya Kür

---

[1]Qarayev E.T. F.İ.Soymonovun “Xəzər dənizinin və orada həyata keçirilən Rusiya işğallarının, imperator Böyük Pyotrun tarixinin bir hissəsi kimi təsviri” adlı səyahətnaməsi Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 2006, 41 s.

[2]Белль Джон. Белевы путешествия чрез Россию в разныя асиятские земли: а имянно: в Испоган, в Пекин и Константинополь. Перевел с французского Михайло Попов. Часть первая, СПб., 1776, 250 с.

çayı Kürdüstan vilayətinin ortasından keçir və buna görə də belə adlandırılmışdır.

Birinci fəslin **"İ.Gerber və onun əsərləri"** adlı üçüncü yarımfəsilində İ.Gerber haqqında məlumat verilmiş, əsərləri təhlil olunmuşdur. Mənşəcə Almaniyanın Brandenburq vilayətindən olan İohan Qustav Gerber əvvəlcə leytenant rütbəsində Saksoniya ordusunun İsveçə qarşı müharibəsində iştirak etmiş, 1710-cu ildə isə artilleriya poruçuki rütbəsində Rusiya xidmətinə daxil olmuşdur.[1] O, Rusiya ordusunun tərkibində müharibədə iştirakını davam etdirərək fərqlənir və 1721-ci ildə mayor rütbəsinə yüksəldilir.[2]

I Pyotrun Xəzəryanı bölgələrə 1722-ci ildə gerçəkləşdirdiyi yürüşdə iştirak edən İ.Gerber ordunun əsas hissəsi ilə geri qayıtmayaraq beş-altı il bölgədə qalır. 1723-cü ildə Bakı rus qoşunları tərəfindən işğal edilərkən mayor İ.Gerber topçuların rəisi olmuş, 1724-cü il İstanbul osmanlı-rus müqaviləsi əsasında Qafqazda Rusiya və Osmanlı imperiyaları arasında sərhədləri müəyyənləşdirməkdən ötrü təşkil olunmuş komissiyanın tərkibində iştirak etmişdir. Rusiyaya qayıtdıqdan sonra polkovnik rütbəsinə yüksəldilən İ.Gerber, sonralar 1734-cü ildə mühasirə artilleriyasını Azova aparmaq əmri almış, Novopavlovsk qalasına çatanda xəstələnmiş və həmin ilin oktyabrında vəfat etmişdir. İ.Gerber müşahidələri, oxuduqları və topladığı məlumatlar əsasında bir neçə əsər yazmışdır. 1760-cı ildə onun əsas əsəri "Xəzər dənizinin qərb tərəfində Həştərxan və Kür çayı arasında yerləşən xalqlar və torpaqlar, onların 1728-ci ildəki vəziyyətinə dair xəbərlər" adı ilə rus dilində nəşr edilir.[3] Müəllifin əsərinin digər bir variantını M.O.Kosven 1958-ci ildə "Dağıstanın tarixi coğrafiyası və etnoqrafiyası" qaynaqlar toplusunda "Xəzər dənizinin qərb tərəfindəki ölkə və xalqların təsviri" adı altında nəşr etdirmişdir. Qeyd edək ki, "Təsvir" öz quruluşuna görə 1760-cı ildə çap olunmuş əsərdən fərqlənsə də məzmunca

---

[1]Полиевктов М.А. Европейские путешественники XIII-XVIII вв. по Кавказу, Тифлис, 1935. с. 111.

[2]Гербер И.Г. Известия о находящихся с западной стороны Каспийского моря между Астраханью и рекою Курой народах и землях , и о их состоянии в 1728 году. Сочиненное Полковником Артиллерии Иваном Густавом Гербером // Сочинения и переводы к пользе и увеселению служащия, 1760 г., ч.2, с.5.

[3]Гаджиев В.Г. Сочинение И. Гербера «Описание стран и народов между Астраханью и рекою Курой находящихся» как исторический источник по истории Кавказа. Москва: Изд. Наука, 1979. с.15.

bir sıra yerlərində üst-üstə düşür. Belə ki, "Təsvirin" mətni bir növ siyahı və cədvəl formasında olduğu halda, 1760-cı ildə Millerin çap etdirdiyi variant vahid bir əsərdir. Güman olunur ki, əvvəlcə cədvəl formasında olan mətn yazılmış, sonra ona bədii cəhətdən tərtibat verilərək tarixi bir əsər kimi tərtib olunmuşdur.[1]

1937-ci ildə M.A.Polievktov İ.Gerberin bir iqtisadi layihəsini nəşr etdirmişdir. "Russkiy arxiv" jurnalının 1899-cu il 12-ci sayında çap olunmuş "Hökmdar Böyük Pyotrun dövründə olmuş İran yürüşü haqqında" yığcam məlumat səciyyəli əsərin də İ.Gerber tərəfindən yazıldığı güman edilir.[2] Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Rusiya İmperiyasının Xarici Siyasət Arxivinin 77 saylı Rusiyanın İranla münasibətləri Fondunun 1 saylı siyahı üzrə 1728-ci il 14 saylı qovluğunda yenə İ.Gerberin qısa arayış səciyyəli bir əsəri vardır. Bu İ.Gerberin "Təsvir" əsərindən bir qədər sistemə salınmış çıxarışlardan ibarətdir.

Dissertasiyanın ikinci fəsli **"XVIII əsrin birinci 30 ilində Şimali Azərbaycanda iqtisadi vəziyyət və sosial münasibətlər (C.Bel və İ.Gerberin əsərləri əsasında)"** adlanır. Həmin fəslin birinci yarımfəslində o dövrün **kənd təsərrüfatının vəziyyəti** tədqiq olunmuşdur. Qeyd edək ki, XVIII əsrin birinci otuz ili Azərbaycan tarixində dərin tənəzzül vəziyyəti sayıldığı üçün nisbətən az öyrənilmişdir. C.Belin səyahətnaməsi və İ.Gerberin əsərləri bu dövrdə Azərbaycanın iqtisadi həyatını o cümlədən kənd təsərrüfatını təsvir etməyə çox kömək edir. C.Belin əsərindən aydın olur ki, kəndlilərin onsuz da ağır olan vəziyyətini mərkəzi hökumətin zəifləməsi şəraitində quldur dəstələrinin yaranıb özbaşınalıqlar etməsi daha da ağırlaşdırırdı. Həmçinin müəllif yazır ki, A.Volınskinin səfarəti sentyabr ayında Beşbarmaq dağının yanında olarkən səfarət üzvləri dağ sakinlərinin

---

[1]Гербер И.Г. Описание стран и народов вдоль западного берега Каспийского моря. 1728г // История, география и этнография Дагестана XVIII-XIX вв. (архивные материалы) Москва: Изд. восточной литературы, 1958. сс. 60-118.
[2]Гербер И.Г. Замечания, клонящиеся к истинной выгоде Вашего Величества в тех завоеванных персидских провинциях, которые по персидским трактатам остались за Его Величеством Всероссийским. Смотри: Полиевктов М.А. Проект хозяйственной эксплуатации оккупированных в XVIII в. Россией прикаспийских областей Кавказа // Материалы по истории Грузии и Кавказа. Вып. IV, Тбилиси, 1937, сс.283-290.

bir neçə ətraf kəndi qarət etməsi haqqında xəbər almışdılar.[1] Bir tərəfdən 1700-1703-cü illərdə Azərbaycanda, xüsusilə Şirvanda keçən quraqlıq, digər tərəfdən vergi və mükəlləfiyyətlərin həddindən çox artırılması, aclığa və bazarlarda qiymətlərin bir neçə dəfə yüksəldilməsinə səbəb olmuşdur.[2] Səyyahlar xəzinə üçün yığılan vergilərin əhəmiyyətli hissəsinin yerli hakimlər tərəfindən mənimsənilməsini müşahidə etmişdilər. İ.Gerber yazır ki, Şirvan hakimləri heç vaxt gəlirləri və məsrəfləri barədə hesabat vermirlər, buna görə də şahın xəzinəsinə yığılan vergilərdən istədikləri qədər göndərirdilər.[3]

İkinci fəslin ikinci yarımfəsilində **Azərbaycanda ticarət və şəhərlərin vəziyyəti** araşdırılmışdır. Səfəvi dövlətinin ağır tənəzzül keçirməsi, üsyanlar və iğtişaşlar, xarici dövlətlərin - Rusiya və Osmanlı imperiyasının hərbi müdaxiləsi iqtisadiyyata ağır zərbə endirməsinə baxmayaraq Azərbaycanın zəngin təbiəti, Avropa və Asiya arasındakı əlverişli coğrafi mövqeydə yerləşməsi belə ağır vaxtda da ticarət üçün şərait yaradırdı. Şəhərlərdə xarici tacirlərin qalması üçün böyük karvansaralar mövcud idi. C. Bel düşdüyü karvansaraların birində 500 adam qaldığını yazır.[4] Səyyah Təbrizdən İsfahana gedən yolda şah Səfi tərəfindən tikdirilmiş və minlərlə adam yerləşən karvansara gördüyünü qeyd etmişdir.

C.Bel və İ.Gerberin əsərlərində Azərbaycanın Dərbənd, Şamaxı, Təbriz və Bakı şəhərləri haqqında qiymətli məlumatlara rast gəlmək olar. Dərbənd haqqında məlumat verən İ.Gerber onun möhkəmləndirilmiş şəhər olduğunu qeyd edir. Şəhərin həmin dövrdəki vəziyyəti və idarəçiliyi ilə bağlı xeyli məlumatlar verilir. Onun məlumatına görə şəhər sakinlərinin hamısı müsəlman və şiəməzhəb idilər, türk, tatar və fars sözlərindən

---

[1]Белль Джон. Белевы путешествия чрез Россию в разныя асиятския земли; а имянно: в Испаган, в Пекин и Константинополь. Перевел с французского Михайло Попов.Часть первая, СПб.,1776. с.48.

[2]Журнал посланника Волынского 1715-1718 гг. В кн.: Зевакин Е. Азербайджан в начале XVIII в. Известия обществаобследования и изучения Азербайджана, № 8, выпуск IV, Баку, 1929, сс. 6-23.

[3]Гербер И.Г. Известия о находящихся с западной стороны Каспийского моря между Астраханью и рекою Курой народах и землях , и о их состоянии в 1728 году. Сочиненное Полковником Артиллерии Иваном Густавом Гербером // Сочинения и переводы к пользе и веселению служащия, 1760 г., ч.2, с.226.

[4]Белль Джон. Göstərilən əsəri, с.52.

qarışıq olan dildə (yəni Azərbaycan türkcəsində - A.İ.) danışırdılar. Dərbənd sakinlərinin əksər hissəsi döyüşçü idi, min süvari və iki min piyada toplamaq mümkün idi.[1]

Şəhərlər arasında Bakı daha əlverişli mövqeyə malik idi. Bakı karvan yolları üzərində yerləşməklə yanaşı, həm də Xəzərin ən böyük limanı olduğundan bura tacirləri cəlb edirdi. Hələ XVIII əsrin əvvəllərində Bakıda olmuş fransız missionerləri Maz, Başu, Fleriu və başqaları yazırdılar ki, Bakının əsas neməti neftidir, quyulardan çıxarılan neftdən şah xəzinəsi ildə 12 min tümən gəlir götürür.[2] C.Bel "bulaq suyu kimi şəffaf neft" gördüyünü yazır.[3] F.M.Əliyevin düzgün olaraq qeyd etdiyi kimi, neft heç yerdə şəffaf şəkildə çıxmadığından yəqin ki, C.Bel "bulaq suyuna bənzər" neftdən danışarkən süni surətdə təmizlənmiş ağ nefti (kerosini) nəzərdə tutur.[4] Göründüyü kimi Qərbi Avropa ölkələrində neft haqqında dolğun təsəvvür olmadığı bir dövrdə Bakıda yerli əhali nefti ayırıb, ondan kerosin alırdı.

Azərbaycanın digər mühüm şəhəri Şərqdən Qərbə və Şimaldan Cənuba gedən karvan ticarət yollarının üstündə yerləşən Şamaxı idi. Şamaxının böyük, havasının çox gözəl olduğunu yazan C.Bel yerli əhalinin türk dilində danışdığını xüsusi qeyd edir.[5] C.Bel Şamaxının ticarətindən bəhs edərək yazır: "Bu şəhərdə (Şamaxıda) xüsusilə xam ipəklə ticarət aparılır. Ətraf qəzalardan toplanan xam ipək ingilislərin və holalndların İsfahanda təsis etdikləri şirkətlər tərəfindən alınır və böyük bir qismi Hələb şəhərinə göndərilirdi.

---

[1] Гербер И.Г. Известия о находящихся с западной стороны Каспийского моря между Астраханью и рекою Курой народах и землях , и о их состоянии в 1728 году. Сочиненное Полковником Артиллерии Иваном Густавом Гербером // Сочинения и переводы к пользе и веселению служащия, 1760 г., ч.2, сс. 203-204.

[2]Выдержки из «Letters curienses et e difianters etc (de le Maze, Bachond, Fleurian ets". (Выдержки из записей французских миссионеров Маза, Башуда, Флориа и др. перевод с французского на русского Абезгуза) // AMEA TİEA, f.1, siyahı, 1, iş  471.s. 17.

[3]Белль Джон. Белевы путешествия чрез Россию в разныя асиятския земли; а имянно:в Испаган, в Пекин и Константинополь. Перевел с французского Михайло Попов. Часть первая, СПб., 1776. с.49.

[4]Əliyev F.M. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət. Bakı: Azərbaycan SSRİ EA nəşriyyatı, 1964, s.35.

[5]Белль Джон. Göstərilən əsəri, c.60.

Şimali Azərbaycanın böyük şəhərlərindən biridə Gəncə idi. C.Bel və İ.Gerber burada olmadıqlarından onun haqqında məlumat vermirlər. Buna görə də dissertasiyada həmin şəhər haqqında məlumat verərkən digər səyyahların səyahətnamələrindən istifadə olunmuşdur.

Azərbaycanın cənubunda ən böyük şəhər Təbriz olmuşdur. O, əhalisinin sayına görə Səfəvi dövlətində və regionda ilk yerlərdən birini tuturdu. 1716-cı ildə Təbrizdə olmuş A.Volınski burada 36 min ev olduğunu yazır. Hər evdə azı beş nəfərin yaşadığını qəbul etsək o zaman Təbrizdə 180 min nəfərin yaşadığını söyləyə bilərik. C.Hanvey 1721-ci ilin martında baş vermiş zəlzələdə şəhərdə 100 minə yaxın sakinin həlak olduğunu qeyd etmişdir.[1] C.Bel Təbrizin əyalətin ən böyük şəhəri olduğunu, əzəmətli keçmişə malik oldugunu qeyd edərək buradakı tarixi abidələr haqqında məlumat vermişdir. Yarım fəsildə həmçinin Azərbaycan - Rusiya ticarətinin o zamankı durumu tədqiq olunmuş, Rus dövlətinin elçisi A.Volınskiyə ticarətlə bağlı verilmiş tapşırıqlar təhlil edilmişdir

İkinci fəslin üçüncü yarımfəsli "**Azərbaycanın daxili və xarici siyasi vəziyyətinin gərginləşməsi**" adlanır. Yarım fəsildə mənbələrdə göstərilən fakt və məlumatlar əsasında XVIII əsrin əvvəlində Səfəvi dövlətinin dərin sosial-iqtisadi və siyasi böhran keçirməsi göstərilmişdir. Qeyd olunur ki, vergi və mükəlləfiyyətlərin ağırlığı, feodal zülmünün güclənməsi Səfəvi dövlətinin hər yerində dövlətə qarşı çıxışlara səbəb olmuşdur. Göstərilən dövrdə Azərbaycanda ən mütəşəkkil və kütləvi üsyan Şirvanda baş vermişdi. Hərakatda rəhbərliyi ələ keçirən feodallar və ruhanilər üsyançıların dini hisslərini qızışdıraraq üsyana dini rəng verə bildilər. İ.Gerber Hacı Davudun başçılıq etdiyi üsyançıları "kobud qiyamçı kəndlilər" adlandırır.[2] Yarımfəsildə Hacı Davud və Surxay xan Qazıqumuqlunun başçılıq etdiyi üsyançıların əməliyyatları, o cümlədən Şamaxının ələ keçirilməsi haqqında geniş məlumat verilmişdir.

Dissertasiyanın üçüncü fəsli "**Azərbaycanın Rusiya və Osmanlı imperiyaları arasında bölüşdürülməsi**" adlanır. Bu fəslin birinci yarım

---

[1]Ханвей Д. Исторический очерк британский торговли на Каспийском море, с журналом автора о путеществии из Англии через Россию, Германию и Голландию. том 2, (Перевод с англ. яз. Л.М.Кирякова). AMEA TİEA, fond 1, siy. 1, iş 158. s.114.

[2]Гербер И.Г. Описание стран и народов вдоль западного берега Каспийского моря. 1728г // История, география и этнография Дагестана XVIII-XIX вв. (архивные материалы) Москва: Изд. восточной литературы, 1958. с.95.

fəslində **I Pyotrun Azərbaycana hərbi müdaxiləsi və Xəzəryanı vilayətlərin Rusiya tərəfindən işğal olunması** işıqlandırılmışdır. Qeyd olunur ki, XVI-XIX əsrlərdə Rusiya elə sürətlə yeni torpaqlar ələ keçirirdi ki, onun sərhədləri hərəkət edən sərhəd səviyyəsi almışdır. I Pyotrun dövründə Rusiyanın xarici siyasət xətti "üç dənizi" (Baltik, Qara və Xəzər dənizi) idi. Bu üçbucaqda Vislanın mənsəbindən, Volqadan keçməklə Xəzər dənizi istiqamətində hərəkət etmək mühüm rol oynayırdı.[1] İsveçlə 1721-ci ildə Niştad sülhünü bağlayıb Baltik sahillərində möhkəmlənən I Pyotr öz diqqətini Xəzər regionuna yönəltdi. İ.Gerber yazır ki, Rusiya ticarətinin inkişaf etdirilməsi I Pyotrun daimi qayğılarından idi, İran və Hindistan Rusiya ticarətini çiçəkləndirə biləcək ölkələrdir.[2]

Dissertasiyada mötəbər faktlarla XVIII əsrin əvvəlindən rus çarizminin Qafqaz siyasətinin xarakteri açılaraq onun açıq hücum xarakteri daşıdığı sübut olunur, bu işğalçılıq siyasətini doğuran amillər müəyyənləşdirilir. 1721-ci ilin avqustunda üsyançılar Şamaxı şəhərini alarkən bir neçə rus tacirinin qətlə yetirilib mallarının qarət edilməsi cənuba yürüş üçün əlverişli bəhanə oldu. İ.Gerber I Pyotrun yürüşünə bir növ bəraət qazandıraraq yazır ki, güya çarı buna vadar edən sıxışdırılmış Səfəvi şahına yardım göstərmək arzusu, digər tərəfdən Xəzəryanı vilayətlərin Osmanlı türklərinin əlinə düşməsi qorxusu vadar edirdi.[3] Yarım fəsildə I Pyotrun yürüşü haqqında geniş məlumat verilmişdir. Bir məsələni xüsusi qeyd etmək lazımdır: İ.Gerber yazır ki, 1722-ci ildə rus ordusu Dərbəndi tutduğu zaman onun öncül hissələri Samur və Vəlvələ çayları arasında yerləşən Müşkür mahalını tutmuşdur.[4] Bu fakt tarixi mənbələrin heç birində yoxdur. İ.Gerber Bakı sultanının rus qoşunlarını şəhərə buraxmaq istəməməsini, I Pyotrun qılıncla Bakını tabe etməyi qərara aldığını, lakin gözlənilməz hadisələrin yürüşü dayandırmağa vadar etdiyini yazır. O, gözlənilməz hadisələr sırasına aşağıdakıları aid edir: Taxıl və un daşıyan avarlı gəmilər Milukənd çayı sahilində dayanarkən, taxıl boşaldıqdan sonra gecə güclü şimal küləyi başlamış və gəmiləri axın aparmağa başlamışdı.

---

[1]Зеленева И.В Россия в системе международных отношений (XVIII- первая половина XIX в.) геополитический и геостратегический аспекты. АКД. СПб., 2005, с.18.

[2]О персидском походе, при государе Петре Великом бывшем // Русский Архив, 1899, №12, с. 481.

[3]Yenə orada s.482

[4]Yenə orada s.482

Lövbərləri qaldırıb gəmiləri sahilə yaxınlaşdırıb quma oturtmaq mümkün olsa da bütün 13 gəmidəki un demək olar ki, islanmışdı. İşin tərsliyindən kapitan Villebuanın ərzaq gətirən gəmisi nasazlıq ucbatından Aqraxan körfəzindən cənuba üzə bilməmişdir.Yalnız bir aya çatacaq un qalmışdı ki, ilin bu vaxtında da Həştərxandan əlavə taxıl gətirmək mümkün deyildi.

I Pyotr ordunun əsas hissəsi ilə Rusiyaya qayıtsa da Xəzəryanı vilayətlərin işğalını davam etdirmək fikrindən dönməmişdir. Onun göstərişi ilə hərbi-dəniz ekspedisiyaları təşkil olunaraq Rəşt və Bakı şəhərləri zəbt edilmişdir. Yarım fəsildə Bakının işğal olunmasına xeyli yer verilmişdir. Qeyd etmək lazımdır ki, tarixi ədəbiyyatda və bəzi mənbələrdə Bakının 1723-cü il iyulun 28-də alındığı yazılır.[1] İ.Gerber isə bu hadisənin iyulun 26-da baş verdiyin yazır.[2] Fikrimizcə İ.Gerber hadisələrin biləvasitə iştirakçısı olduğundan ona inanmaq olar.

Rus höküməti Xəzəryanı vilayətlərin işğalına qanuni don geyindirmək üçün 1723-cü il sentyabrın 12-də aldadılaraq Peterburqa gətirilmiş Səfəvi elçisi İsmayıl bəylə bu vilayətlərin Rusiyaya keçməsi haqqında müqavilə bağladı.[3]

Fəslin ikinci yarımfəslində **Osmanlı imperiyasının Azərbaycanın şimal-qərb, qərb və cənub ərazilərini ələ keçirməsi** prosesi tədqiq olunur. Göstərilir ki, Osmanlı hökuməti dağılmaqda olan Səfəvi dövlətinin ərazisində ilk növbədə dinc yolla möhkəmlənmək istəyirdi və Şirvan üsyançılarının başçısı Hacı Davuda xan titulu verməklə onu sultan himayəsinə qəbul etmişdi. Daha sonra rusların regionda irəliləməsinə biganə qalmayan Osmanlı hökuməti hərbi qüvvələrini cənubi Qafqaza yeritdi. İki imperiyanın eyni regionda işğalçılıq hərəkətlərinə rəvac verməsi onlar arasında müharibə təhlükəsi törədirdi. 1711-ci ildə Prut sahillərində osmanlılardan ağır zərbə almış I Pyotr bu dövlətlə yenidən hərbi münaqişəyə girməkdən qorxurdu, buna görə də onun xahişi ilə fransız diplomatiyası vasitəçilik edərək 1724-cü ildə İstabulda iki dövlət arasında

---

[1]Соймонов Ф.И. Описание Каспийского моря и чиненных на оном российских завоеваний // Ежемесячные сочинения и известия о ученых делах (СПб.), 1763, январь, с.71.

[2]О персидском походе, при государе Петре Великом бывшем // Русский Архив, 1899, №12, с. 481.

[3]Бутурлин Д. Военная история походов россиян в XVIII веке (часть вторая, заключающая описание персидской войны с 1722 по 1734 гг.). Перевел с французского штабс-капитан Корнилович. СПб., 1823, с.215

Səfəvi irsini bölüşdürmək haqqında müqavilə bağlandı. İstanbul müqaviləsi imzalandıqdan sonra Osmanlı hökuməti müqavilə ilə onun üçün nəzərdə tutulmuş torpaqları ələ keçirmək məqsədi ilə hərbi əməliyyatları fəallaşdırdı. İrəvan, Təbriz, Gəncə, Ərdəbil şəhərləri və başqa yerlər ələ keçirildi.

Üçüncü fəslin üçüncü yarımfəsli **"Xəzəryanı vilayətlərdə rus işğal rejimi"** adlanır. Rus hökumətinin Xəzəryanı ərazilərdə gördüyü ilk mühüm tədbirlər İstanbul müqaviləsinə görə Rusiyaya ayrılmış bölgələri itaətə gətirməkdən, nəzarəti altında olan yerlərdə qalaları möhkəmləndirib, yeni istehkamlar inşa etdirməkdən, Osmanlı dövləti ilə ərazi sərhədlərini dəqiqləşdirməkdən ibarət oldu. Bu yarım fəsildə həmin tədbirlər haqqında geniş məlumat verilmişdir. Rusiyanın Azərbaycanda və Gilanda ələ keçirdiyi ərazilərin sərhədləri Dərbənddən qərbdə dənizdən 18 saat at yerişi məsafəsində (yəni təqribən 100 verst məsafədə), Gilanda isə Rəşt şəhərindən təqribən 124 verst cənub-qərbə keçirdi.[1] Rus işğal zonasındakı ərazilər əyalətlərə, əyalətlər mahallara, mahallar isə kəndlərə bölünürdi. Əyalətləri rus zabitləri - komendatlar, mahalları və nahiyyələri isə yerli hakimlər idarə edirdilər. Tədqiqatda başlıca məlumatları digər tarixi mənbələrdəki məlumatlarla tutuşdurmaqla rus işğal zonasına daxil olan ayrı-ayrı əyalətlərin, habelə yarım müstəqil Quba xanlığının vəziyyəti ətraflı işıqlandırılmışdır.

Fəslin dördüncü yarımfəslində **Çarizmin Xəzəryanı vilayətlərdə yürütdüyü iqtisadi siyasət** tədqiq olunmuşdur. Qeyd olunur ki, rus hakimiyyət orqanları işğal olunmuş vilayətlərdə təsərrüfat həyatını canlandırmağa çalışır, bağçılığı genişləndirmək üzümçülüyü təşkil etmək, zəfaran istehsalını artırmaq və tütün plantasiyaları yaratmaq üçün müəyyən cəhdlər göstərirdilər. Rus höküməti neft hasilatına xüsusi diqqət yetirir, buradan mümkün qədər çox neft aparmağa çalışırdı. Rusiya hakim dairələrini xam ipək, habelə yun, təbii boyalar, tikinti materialları və s. maraqlandırırdı. Bütün cəhdlərə baxmayaraq rus xəzinəsi yeni əyalətlərdən gözlənilən gəliri əldə edə bilmirdi. Çünki təsərrüfat idarəçiliyi primitiv səviyyədə idi və qarətçilik vardı. İ.Gerber primitiv dövlət təsərrüfatının əvəzinə hərbi idarəçiliyi təsərrüfat idarəçiliyindən tam ayırmağı, xüsusi təsərrüfat orqanları yaratmağı, düzgün nəzarət və aylıq hesabat verilməsini təşkil etməyi, dövlətə məxsus maddələrin icarəyə verilməsini

---
[1]Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. ч.1, СПб., 1863, сс.87-90.

qeyd edirdi.[1] İ.Gerber Bakıda ticarəti ciddi qaydaya salmağı, burada bütün Ön Asiya ticarətinin yeni qovşağını yaratmağı, bu yolla osmanlıların nəzarəti altında qalan Şamaxının əhəmiyyətini azaltmağı təklif edirdi.[2]

Üçüncü fəslin sonuncu, beşinci yarımfəslində İ.Gerberin təsviri əsasında **Şirvan xanlığı və Azərbaycanın digər şimal bölgələri 1723-1727-ci illərdə tədqiq olunmuşdur.** Şirvanın Rusiyaya qatılmış dənizkənarı zolağı istisna olmaqla qalan ərazisində Osmanlı imperiyasından asılı Hacı Davudun xan olduğu Şirvan xanlığı mövcud idi. Şirvan ərazisində uzun müddət qeyri-sabit vəziyyət davam etmişdir. Çünki vilayətin idarəçiliyindən kənarlaşdırılmış Surxay xan Qazıqumuqlu Hacı Davudla ədavət apararaq tez-tez buraya basqınlar edirdi. Surxay xanın basqınlarının qarşısını ala bilməyən Osmanlı hökuməti çıxış yolunu 1728-ci ildə Hacı Davudu həbs və sürgün edib yerinə Surxay xanı təyin etməkdə gördü. İ.Gerber Şirvan xanlığına daxil olan mahallarla yanaşı Car və Şəki haqqında da müəyyən məlumatlar vermişdir. Müəllif Azərbaycanın Şimal hissəsinin digər mühüm bölgəsi olan Qarabağın o zamankı durumu haqqında heç bir məlumat vermir. Lakin Azərbaycanın şimal hissəsinin XVIII əsrin birinci 30 ilindəki vəziyyəti haqqında oxucuda bütöv təsəvvür yaransın deyə biz vətənimizin əzəli və əbədi parçası olan Qarabağın bəhs edilən dövürdəki durumu haqqında digər mənbələrə[3] və tarixi ədəbiyyata əsaslanaraq qısa da olsa məlumat vermişik.

Dissertasiynın **"Nəticə"** hissəsində ümumiləşdirmələr aparılmış, əldə olunmuş nəticələr təhlil edilmiş, mənbələrin müqayisəli təhlili işi görülmüş və elmi araşdırmalara yekun vurulmuşdur.

---

[1]Полиевктов М.А. Проект хозяйственной эксплуатации оккупированных в XVIII в. Россией Прикаспийских областей Кавказа. //Материалы по истории Грузии и Кавказа. Вып. IV, Тбилиси, 1937, с.259.

[2]Гербер И.Г. Замечания, клонящиеся к истинной выгоде Вашего Величества в тех завоеванных персидских провинциях, которые по персидским трактатам остались за Его Величеством Всероссийским. Смотри: Полиевктов М.А. Проект хозяйственной эксплуатации оккупированных в XVIII в. Россией прикаспийских областей Кавказа// Материалы по истории Грузии и Кавказа. Вып. IV, Тбилиси, 1937, сс.286-287.

[3]Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov. (Qaramanlı). Bakı: Şuşa, 2000, 576 s.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı tezis və elmi məqalələrində öz əksini tapmışdır:**

1. Con Bel və İohann Qustav Gerberin əsərləri XVIII əsrin ilk otuzilliyində Azərbaycanın sosial-iqtisadi vəziyyətini öyrənmək üçün bir mənbə kimi. Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi əsərləri, 41-43-cü cild, Bakı 2012, s.97-105.

2. XVIII əsrin birinci 30 ilində Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti (C.Bel və İ.Q.Gerberin əsərləri əsasında). Lənkəran Dövlət Universiteti, AMEA-nın Lənkəran regional elmi mərkəzi. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 90-cı ildönümünə həsr olunmuş "Müasir elmin aktual elmi problemlər" mövzusunda respublika elmi konfransının materialları. Lənkəran, 2013, s.135-137.

3. XVIII əsrin ilk otuz ilində Azərbaycanın sosial-iqtisadi və siyasi vəziyyəti (C.Bel və İ.Q.Gerberin əsərləri əsasında). Lənkəran Dövlət Universiteti. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş "Azərbaycanın bölgələrində təhsilin və elmin inkişafı" mövzusunda respublika elmi konfransı materialları. Lənkəran, 2015, s.156-159.

4. Con Belin "Səyahətnamə"si XVIII əsrin əvvəlləri Azərbaycan tarixinin mənbəyi kimi. Lənkəran Dövlət Universitetinin Elmi Xəbərləri, Lənkəran, 2015, s. 31-36.

5. Дербент в 20-е годы XVIII веке. Материалы Международной научной конференции «Дербент в историческом процессе Кавказа и России», посвященной 2000-летию г. Дербента. г. Махачкала, 19 июня 2015 г. Махачкала, 2015, сс. 187-192.

6. К вопросу о социально - экономическом положении Азербайджана в первой трети XVIII века (на основе трудов Джона Белла и Иоганна Густава Гербера). "Сходознавство" 2015, №71-72, сс.12-26

7. Путевые заметки Джона Белла и Иоганна Гербера как источники по изучению истории Азербайджана. Современная Научная Мысль, Москва, 1/2016, сс.5-12.

8. 1722-1735-ci illərdə Azərbaycanın Xəzəryanı bölgələrində rus işğal rejiminə dair. Geostrategiya, İctimai-siyasi, elmi jurnal, №1, Bakı, 2016, s.46-50.

9. Azərbaycanın Şirvan əyaləti və ona qonşu ərazilər XVIII əsrin 20-ci illərində (İ.Gerberin əsərləri əsasında). Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal, №1, Bakı, 2016, s. 35-38.

10. Con Belin "Səyahətnamə"si Azərbaycanın sosial-iqtisadi vəziyyəti barədə XVIII əsrin ilk 30 ilinə aid tarixi mənbə kimi. Lənkəran Dövlət Universiteti. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr olunmuş “Müasir elmin aktual problemləri” mövzusunda respublika elmi konfransı materialları. Lənkəran, 2016, s.165-166.

11. 1722-1735-ci illər müvəqqəti rus işğalı zamanı çarizmin Xəzəryanı vilayətlərdə yürütdüyü iqtisadi siyasət haqqında. Pedaqoji Universitetin xəbərləri. Humanıtar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası, 2016, C.64, №1, s.136-144.

**А.А.Иманлы**

## Социально-экономическое и политическое положение Азербайджана в первое тридцатилетие XVIII века (на основе произведений Джон Беля и Иоганна Густава Гербера)

### Резюме

В диссертации комплексно рассмотренно первое тридцатилетие XVIII века истории Азербайджана на основе трудов Джона Беля и Иоганна Густава Гербера, с привлечением других источников.

Во «Ведении» обоснована актуальность выбранной темы, анализирована степень её изученности, определены цель и задачи исследования.

В первой главе упомянуты источники истории Азербайджана в первом тридцатилетии XVIII века, среди которых отмечаются научные работы Джона Беля и Иоганна Густава Гербера.

Во второй главе исследованы экономическое положение и социальные отношения в Северном Азербайджане в первом тридцатилетии XVIII века. В том числе освещены положения сельского хозяйства и торговли городов. В этой главе нашло отражение также обострение внутреннего и внешнего положения страны в указанном периоде.

Заключительная, третья глава называется «раздел Азербайджана между Россией и Османской империи». Здесь освещены такие вопросы, как военное вторжение Петра I и оккупация прикаспийских провинций. Захват Османской империей северно-западных, западных и южных земель Азербайджана. Российский оккупационный режим в прикаспийских областях, экономическая политика царизма в этой области, положение полунезависимого Ширванского ханства и других частей Северного Азербайджана в 1723-1727 гг.

В «заключении» приведены выводы и обобщения вытекающие из исследований.

**A.A.İmanly**

## The socio-economic and political situation in Azerbaijan in the first 30 years of the 18th centure ( on the basis of the works John Bell and İohann Gustav Gerber)

### Summary

In the thesis comprehensively considered the first thirty years of the XVIII century history of Azerbaijan, based on the works of John Bell and Johann Gustav Gerber with the involvement of the other sources.

In “Introduction” is based the relevance of the chosen topic, analyze the degree of its study, the purpose and objectives of the study.

In the first chapter had described the sources of history of Azerbaijan in the first thirtieth anniversary of the XVIII century and had elucidated among them there were works of John Bell and Johann Gustav Gerber.

In the second chapter had studied the economic situation and social relations in Northern Azerbaijan in the first thirtieth anniversary of the XVIII century. Including it was elucidating the situation of agriculture highlights, trade and cities. This chapter also reflected exacerbation of the internal and external situation of country in this period.

In the final third chapter the section was called “A section of Azerbaijan between Russian and the Ottoman Empire”. Here highlight issues such as the military intervention of Peter I and the occupation of the littoral provinces. Capture the Ottoman Empire north-western, western and southern lands of Azerbaijan. Russian occupation regime in the Caspian regions, the economic policy of the tsarist in this field, the position of the semi-independent Shirvan Khanate and other parts of the North Azerbaijan in 1723-1727 years.

In conclusion the adduce inference and generalizations stemming from research.

**Sifariş 86**

**Sayı 100 ədəd**

**“Ləman” nəşriyyat poliqrafiya MMC-də çap edilmişdir**

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

---

*На правах рукописи*

**АСИФ АБДУЛАГА оглу ИМАНЛЫ**

# СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКОЕ И ПОЛИТИЧЕСКОЕ ПОЛОЖЕНИЕ АЗЕРБАЙДЖАНА В ПЕРВОЕ ТРИДЦАТИЛЕТИЕ XVIII ВЕКА

**(на основе произведений Джон Беля и Иоганна Густава Гербера)**

**Специальность: 5503.02 – “Отечественная история”**

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

**БАКУ– 2017**